

# Saqareco bələdiyyəsində

## etnik azərbaycanlıların ehtiyacları icmalı

SOCIAL JUSTICE CENTER

# Saqareco bələdiyyəsində etnik azərbaycanlıların ehtiyacları icmalı

Sosial Ədalət Mərkəzi

Tbilisi, 2023

Sənəd Sosial Ədalət Mərkəzi tərəfindən, USAID-in “Birlik müxtəliflikdədir” proqramı çərçivəsində hazırlanmışdır. Proqram Gürcüstan BMT Assosiasiyası tərəfindən, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyilə həyata keçirilir.

Sənəddə verilmiş nəzərlər və düşüncələr Sosial Ədalət Mərkəzinə məxsusdur və ABŞ Beynəlxalq İnkişaf Agenliyi və Gürcüstanda BMT Assosiasiyası mövqeyi kimi qəbul edilməməlidir.

Burda verilmiş materialı Sosial Ədalət Mərkəzinin yazılı icasəzi olmadan yenidən çap etmək, çoxaltmaq və ya kommersial məqsədlərlə yaymaq qadağandır.

***Sitat gətirmək qaydası:*** *Sosial Ədalər Mərkəzi, „Saqareco bələdiyyəsində Etnik azərbaycanlıların ehtiyaclarının müzakirəsi“, 2023*

© Sosial Ədalət Mərkəzi

Ünvan: İ. Abaşidze 12b, Tbilisi, Gürcüstan

Te.: +995 032 2 23 37 06

www.socialjustice.org.ge

info@socialjustice.org.ge

https://www.facebook.com/socialjustice.org.ge

# Mündəricat


Giriş və metodologiya ........ 3

Saqareco bələdiyyəsi haqqında ........ 4

Ləmbəli kəndi ........ 4

Ləmbəli kəndi haqqında ümumi məlumat ........ 4

Ləmbəli kəndinin ehtiyacları: ........ 5

Düzəyrəm və Paldo kəndi ........ 7

Düzəyrəm və Paldo kəndləri haqqında ümumi məlumat ........ 7

Düzəyrəm və Paldo kəndinin ehtiyacları ........ 8

Muğanlı və Keşəli kəndi ........ 10

Muğanlı və Keşəli haqqında ümumi məlumat ........ 10

Muğanlı və Keşəli kəndinin ehtiyacları ........ 10

Qazlar kəndi ........ 12

Qazlar kəndi haqqında ümumi məlumat ........ 12

Qazlar kəndinin ehtiyacları ........ 12

Yekunlaşdırma ........ 14

# Giriş və metodologiya

Sosial Ədalət Mərkəzinin qeyri-dominant və dini qrupların hüquqi məsələləri üzərində fəal işləməsi göstərir ki, Gürcüstanda müxtəlif qruplar qarşısında siyasi iştirak, həyati əhəmiyyət kəsb edən resurslar və sosial proqramlara əlçatımlılıq problemi olduqca kəskin şəkildə dayanır. Sosial Tədqiqat və Təhlil İnstitutu tərəfindən 2021-ci ildə keçirilən kəmiyyət xarakterli tədqiqatına əsasən, etnik azlıqların 15%-i daha yoxsuldur, ali/texniki təhsil göstəricisi isə azlıqlar arasında 2 dəfə daha azdır.[1]

Eyni tədqiqata əsasən, Kaxetinin etnik azərbaycanlı əhalisində tam ümumi təhsili olmayan əhalinin sayı 54%-ə bərabərdir. Məktəbəqədər təhsil isə Kaxetinin etnik azərbaycanlılarının 56%-i üçün əlçatmazdır.[2] Burdaca qeyd etmək gərəkdir ki, Kaxeti bölgəsində yaşayan etnik azərbaycanlıların ehtiyacları nəinki Dövlət, habelə bir çox hallarda vətəndaş və insan hüquqları institutlarının fokusuna belə düşmür.

Kaxeti azərbaycanlı icmasının ehtiyaclarına fokuslaşmış təhlil üçün, Sosial Ədalət Mərkəzi Saqareco Bələdiyyəsində qeyri-dominant etnik qruplarla məskunlaşmış kəndlərdə: Qazlarda, Ləmbəlidə, Keşəlidə, Muğanlıda, Paldoda və Düzəyrəmdə ehtiyaclar üzrə tədqiqat aparmışdır. Bu kəndlər dörd inzibati vahidlikdə birləşmişdir, lakin yerli əhali onları vahid bir məkan kimi görür və azərbaycan dilində Qaraçöp (Muğanlı) adlandırır. Bunun səbəblərindən biri kəndlər arasında fiziki və coğrafi ayırıcı xətlərin olmaması ola bilər ki, bir çox hallarda əhali kəndlər arasındakı sərhəldləri ayıra bilmirlər.

Bu kəndlərdə əhalinin əhəmiyyətli hissəsi kənd təsərrüfatı, xüsusilə də heyvandarlıqla məşğuldur. Bununla belə, kənd əhalisinin əhəmiyyətli hissəsi müxtəlif tipli kiçik sahibkarlıq fəaliyyəti və ticarət işinə cəlb edilmişdir. İor-muğanlının girişində bazar olur, o yaxında yerləşən gürcü kəndləri üçün də əhəmiyyətli məkandır. Kənddə bir neçə il bundan əvvəl yerli sakinlərin maliyyələşdirilməsi ilə açılan xəstəxana da var. Kənddə 8 məscid fəaliyyət göstərir. Onlardan ikisi şiə, 6 isə sünni islam məktəbinə məxsusdur.

Kaxeti bölgəsində yaşayan azərbaycanlılar arasında məktəbi bitirdikdən sonra nə qədər də az göstəricilər olsa belə, hər il, 2010-cu ildən etibarən Vahid Milli İmtahanların 1+4 proqramı çərçivəsində ən əla qiymətlər alanlar var. Bu isə, yerli əhalinin izahına görə, yerli müəllimlərin fəal işləməsindən irəli gəlir.

Qarşıdakı sənəd ehtiyacları yerli özünüidarəetmə orqanlarına və mərkəzi idarələrə təqdim etmək və advokatlaşdırmaq məqsədilə kənddə mövcud olan siyasi, sosial, iqtisadi və mədəni çağırışları araşdıraraq öyrənir. Ehtiyaclar xəritəsinin əhalinin təcrübəsi və biliyinə əsaslanması üçün Sosial Ədalət Mərkəzi analizin bu metodologiyasından istifadə etmişdir:

- İcma problemlərini üzərə çıxaran sorğu kitabçası

---

[1] Piranişvili, T; Barbakadze, Z. 2023, Etnik azlıqların sosial və iqtisadi ekskluziyası, burdan baxa bilərsiniz: https://socialjustice.org.ge/ka/products/etnikuri-umtsiresobebis-sotsialuri-da-ekonomikuri-ekskluzia

[2] Ordaca.

• KWHW[3] (Nəyi bilirik, Nə dəyişməlidir, Necə dəyişməlidir, Kim dəyişməlidir) analiz metodu

Bu metodlar bizə icmanın ehtiyaclarını, əhalinin bilavasitə iştirakı və maksimum sistemli şəkildə görmək imkanı verir. İcmanın problemlərini üzərə çıxarmaq üçün nəzərdə tutulan sorğu kitabçasının məqsədi nəinki kənddə mövcud olan problemlərin simptomlarını, habelə dərin əsaslarını, onlara bais olan səbəbləri üzərə çıxarmaqdır. KWHW təhlil metodundan, öz növbəsində, problemin üzərə çıxarılması prosesində, problemin həllinin necə olması, onları həll etməkdə kimin məsul olduğu barədə kənd əhalisinin fikrini öyrənmək üçün istifadə edilir. Tədqiqat çərçivəsində 8 fokus qrup keçirildi. Tədqiqatda ümdə 63 nəfər iştirak etdi. Bunlardan 26 qadın, 37-i isə kişi idi. Fokus qruplarda müxtəlif yaş kütləsindən olan insanlar iştirak edirdilər – həm gənclər, həm də yaşlılar.

Aşağıdakı informasiya yerli icmalar tərəfindən dilə gətirilən və paylaşılan şəkildə təqdim edilir.

## Saqareco bələdiyyəsi haqqında

Saqareco bələdiyyəsi Kaxeti bölgəsinə məxsusdur. Bələdiyyənin tərkibinə Saqareco şəhəri və 25 inzibati vahidlik daxildir (cəmi 48 kənd). Bələdiyyə əhalisinin ümumi sayı, 2014-cü ilin siyahıyaalınmasına görə 51 761 nəfərdən ibarətdir. Burdan əhalinin 33,2%-ni etnik azərbaycanlılar təşkil edirlər. [4]

Bələdiyyə ərazisində 29 uşaq bağçası fəaliyyət göstərir. Onlardan İor-muğanlıda yalnız biri yerləşir. Bununla belə, 2022-ci ildən Ləmbəlidə iki alternativ məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərməkdədir. Saqarecoda 26 ictimai məktəb fəaliyyət göstərir. Burdan 4 İor-muğanlıda yerləşir. Həmin dörd məktəbdən üçünün direktoru azərbaycanlıdır.

Gürcüstan Parlamentində Saqareco bələdiyyəsinin majoritar deputatı Davit Sonğulaşvilidir. Saqareco bələdiyyəsinin Meri Avtandil Qulikaşvilidir. Şəhər şurasının sədri isə Aleksi Qilaşvilidir. Saqareco Şəhər şurasının 39 üzvündən yalnız 4 etnik azərbaycanlıdır və onlardan heç biri qadın deyildir. Azərbaycanlı deputatlar Şəhər şurasında heç bir vəzifə tutmayırlar, Şəhər şurası bürosunun üzvləri belə deyillər. Qeyd etmək gərəkdir ki, Merin də etnik azərbaycanlı müavini və ya müşaviri yoxudur. Habelə, Meriyanın heç bir xidmətinin və şöbəsinin rəisi etnik azərbaycanlı deyildir. Yerli icmanın verdiyi məlumata əsasən, Saqareco bələdiyyəsində Merin onların kəndlərində olan nümayəndələrindən və hərbi komissardan savayı, heç kəs işləmir.

## Ləmbəli kəndi

### Ləmbəli kəndi haqqında ümumi məlumat

Zemo və Kvemo Ləmbəli kəndləri Ləmbəli inzibati vahidliyində birləşmişdir. İnzibati vahidlik Saqareco bələdiyyəsinin tərkibinə daxildir və bələdiyyənin inzibati mərkəzindən 35 kilometr uzaqlıqda yerləşir. Hər iki kənddə ümdə 8934 nəfər yaşayır, bu isə Saqarecodan sonra,

---

[3] Know, What, How, Who

[4] 2014-cü ilin ümumi siyahıyaalmanın nəticələrinə burda baxa bilərsiniz: https://www.geostat.ge/media/20679/2014-wlis-aRweris-ZiriTadi-Sedegebi.pdf

bələdiyyənin ən çoxsaylı yaşayış məntəqəsidir. İnzibati vahidlikdə bir ictimai məktəb mövcuddur. Kənddə Ədliyyə Nazirliyinin İctimai Mərkəzi fəaliyyət göstərir. Kənddə habelə bir sünni məscidi fəaliyyət göstərir.

## Ləmbəli kəndinin ehtiyacları:

1. *(Qavrayış) İcmada problem kimi qavranılan məsələ*

**Siyasi və ictimai həyatda iştirak:** Əhali ilə söhbətdən məlum olduğu kimi, siyasi və ictimai həyatda iştirak etmək onlar üçün böyük çağırışlarla bağlıdır. Onların sözlərinə əsasən, yerli özünüidarəetməyə öz problemlərini çatdırmaq çətinləşib. Əhali üçün bələdiyyə merinin kənddəki nümayəndələrilə əlaqə saxlayaraq problemlərdən danışmaq da bir çox hallarda problemdir. Yerli özünüidarəetmədə yerli icmanın iştirakına bələdiyyə administrasiyasında azlıqların nümayəndələrinin işləməməsi və azlıqların dilində lazımlı tərcümə resurslarının olmaması struktur xarakterli maneə yaratmaqdadır. Merin etimadlıları isə, bir çox hallarda bələdiyyə və əhali arasındakı uçurumun əsas səbəbkarlarıdırlar. Bu kimi sistem çağırışları şübhəsiz ki, icma və yerli hakimiyyət arasında etimadsızlıq iqlimi yaradır. Bu sonuncusu Dövlət tərəfindən tənqidi yanaşılmalı və dəyişdirilməlidir.

**İçməli su və suvarma suyu:** Ləmbəli kəndinin əsas problemi kimi içməli və suvarma suyu qalır. Əhalinin bildirdiyi kimi, onlar suyu evlərinə kimi maşınlarla, arabalarla və ya əllərilə daşımalı olurlar. İllərdir hakimiyyətdən su probleminin həlledilməsini tələb etsələr də, seçkiqabağı siyasətçilər bununla bağlı vəd versələr də, onlar yenə də içməli susuz qalırlar. İçməli su ilə yanaşı suvarma suyu da problemdir.

2. *(Kəmiyyət) İcmada ən çox adamı narahat edən problem*

**Məktəbəqədər təhsil:** Ləmbəlidə insanları ən çox narahat edən problem məktəbəqədər təhsil müəssisələrinin olmaması məsələsidir. Əhali ilə söhbətdən məlum olduğu kimi, “Sokar corcia” şirkəti Ləmbəlidə məktəbəqədər müəssisənin tikintisinə başlayır. Əhalinin bir hissəsi bu faktı alqışlasa da, fəalların bir qismi məktəbəqədər müəssisənin tikilməsi üzərində məsuliyyəti Gürcüstanın götürməli olduğunu, bu məsələdə Gürcüstanın qonşu ölkənin xoş məramından asılı qalmamağını irəli sürür.

Ləmbəli kəndində, bir neçə il əvvəl, **beynəlxalq standarlara uyğun şəkildə yeni məktəb binası tikildi**. Əhali bunun üçün minnətdardır, lakin məktəb artıq təmirə ehtiyac duyur. Sorğu olunanlar küçə işıqlandırmalarını da həmçinin **müsbət qiymətləndirirlər.**

3. *(Müddət) İcmanı ən uzun müddət narahat edən problem*

**Kənd təsərrüfatı torpaqlarına əlçatımlılıq:** Kənd təsərrüfatı torpaqlarına əlçatımılılıq köhnə problemlərdən biridir. İor-muğanlı əhalisi üçün kənd təsərrüfatı torpaqları, mühüm əhəmiyyət kəsb edən resurslardandır, lakin əhalinin sözlərinə görə, kəndin torpaqları (əkin-səpin və otlaqlar) illərdir ki, ədalətsiz və qanunsuz şəkildə özgələşdirilir. Onlarsa öz maraqlarını qoruya bilmirlər. Torpaq məsələsi sorğu edilənlərin əhəmiyyətli hissəsini narahat edir. Kənddə öz həyət-bacalarından əlavə torpaq sahəsi olmayan ailələrin sayı da çoxdur.Onlar kənddə ev tikməyə belə yer qalmadığını deyirlər. Onların fikrincə suvarma sisteminin mövcud olmadığı, torpaqların böyük

hissəsinin isə özəlləşdirildiyi bir şəraitdə kənd təsərrüfatı ilə məşğulluq əhalinin böyük hissəsi üçün qeyri-mümkün olaraq qalır.

**Kənddaxili yollar:** Ləmbəlidə keçirilən müsahibələrə əsasən, köhnə problemlər arasında kənddaxili yollar, içməli su və uşaq bağçası problemi də mövcuddur. Daxili yollarla bağlı kəndin böyük hissəsində onların keçilməz olduğunu və abadlaşmalarına ehtiyac duyulduğunu deyirlər. Əhalinin sözlərinə görə, başqa yollarla bilrikdə, ilk növbədə Ləmbəli qəbristanlığına gedən yol təmir edilməlidir.

4. *(Tezlik) İcmada ən çox üzləşdiyiniz problem*

**İor-muğanlının girişindəki körpünün vəziyyəti:** İor-muğanlının bütün ərazisində və Ləmbəli kəndində də belə, kəndin girişindəki körpünün qəza vəziyyətində olması haqqında bir daha danışırlar. Bu məsələ müəllimlə, dini liderlər, fəallar, fermerlər və s. kimi müxtəlif qrupları özündə birləşdirir. Kəndə daxil olan körpü həqiqətən də qəzalı vəziyyətdədir. Samxarauli bürosu ekspertizasına görə belə, körpü əhalinin səhhətinə təhlükə yaradır, ancaq bu problemi həll etmək üçün işlər yenə də başlamamışdır.

Bir neçə il əvvəl, İor-muğanlıdan olan qadın fəal, bu məsələ ilə bağlı yerli özünüidarəetməyə rəsmi məktubla müraciət etdi. Bununla belə, gənclərin bir hissəsi advoktalaşdırma kampaniyası başlatdı. Onlar bunun üçün videoçarxlar belə hazırladılar. Lakin, fəalların məlumatına əsasən, özünüidarəetmə tərəfindən bu fəallıqla bağlı heç bir cavab addım atılmamışdır.

**Tullantıların idarəsi:** Ləmbəlidə habelə zibil qutularının olmaması problemindən də danışırlar. Əhali onların xüsusilə kənddaxili küçələrində yerləşdirilməsini tələb edir. Gənclərin bildirdiyi kimi onlar müxtəlif fəallıqla, təmizlik aksiyaları ilə özünüidarəetməyə kənddə zibil qablarına ehtiyac olduğunu göstərməyə çalışırlar.

**İctimai nəqliyyat:** Ləmbəlidən olan tələbələrin qiymətləndirməsilə, onları narahat edən məsələlərdən biri nəqliyyat məsələsidir. Əhalinin bir hissəsi üçün, şəxsi maşınları olmayanlara ictimai nəqliyyatsızlıq böyük əziyyətdir. Bu vəziyyət onların çevikliyini əlindən alır və inkişaf imkanlarının məhdudlaşdırır. Universitetə gedən tələbələr özəl taksilərə onlar üçün yüksək olan yol pulu ödəməli olurlar.

5. *(Ağırlıq) Ən intensiv və dözülməz olan problem*

**Otlaqlar və yaylaqlar:** Ləmbəli əhalisinin əhəmiyyətli hissəsi maldarlıqla məşğuldur. Bu Saqareconun azərbaycanlı əhalisinin ənənəvi məşğulluğudur. Heyvanın sayından irəli gələrək, əhali Gürcüstanın müxtəlif bölgələrində bahar və qış yayalaqlarından istifadə edir. Lakin, onlar üçün torpaq və otlaq resursları Saqarecoda da əhəmiyyətlidir. Ən ağır problemlər arasında çobanların ən böyük problemi – yay və qış otlqların qıtlığının da adı çəkilir. Əhaliyə görə, torpaqları bir çox hallarda qoyunu olmayan şəxslər icarəyə götürür, qoyunu olanlar isə otlağı onlardan daha bahaya almalı olur. Bu, bir çox hallarda əhalinin Dövlət dilini bilməməsindən irəli gəlir, bundan əlavə onlara icarə ilə veriləcək torpaq haqqında məlumat əlçatmaz qalır. Dövlətsə bu məsələ barədə yerli fermerlərlə fəal işləmir. Maldarlıq Saqareco azərbaycanlı icmasının ənənəvi məşğuliyyətidir. Onlar bir çox hallarda köçəri həyat sürür, lakin torpağın qiymətinin artması və vasitəçilər tərəfindən qiymətlərin yüksəldilməsinə görə, əhalinin bir qismi maldarlıqdan vaz

keçməli olur. Banka olan borclanmalar da ayrıca bir problemdir. Otlağın icarə pulunu vermək üçün əhali bankdan kredit götürməli olur.

**Otlağa aparmaq yolları:** mal-qaranı otlağa aparmaq yolları da otlaq problemilə bağlıdır. Yerli əhalinin dediyi kimi həmin yolları Dövlət müəyyən müddət içərisində satmışdır. Nəticədə, yeni torpaq sahibləri və çobanlar arasında münaqişələr tez-tez baş verir. Qoyun sahibləri bir çox hallarda sürünü problemsiz keçirmək üçün bir neçə baş qoyundan vaz keçərək torpaq sahibinə bağışlamalı olurlar. Bu onlar da ədalətsizlik və narazılıq hissi yaradır..

**Yanğınsöndürmə maşınları:** fokus qruplarda, iştirakçılar kəndə yanğınsöndürmə maşınlarına ehtiyacı olduğunu vurğulayırdılar. Onların sözlərinə əsasən, son illərdə bir neçə ev yanmışdır, yanğınsöndürmə maşını isə hər şey bitib qurtardıqdan sonra gəlmişdir.

6. *(Bərabərlik) bərabərlik hüququnu pozan problem*

**Başqa kəndlərə nisbətən daha az diqqət:** Ləmbəli kəndi əhalisində bazis infrastruktur probleminin gürcü kəndlərində daha yaxşı həll edildiyinə dair inam var. Fokus qruplarda əhali bu bərabərsizliyi öz etnik mənsubiyyəti ilə izah edir. Bununla belə Düzəyrəm və Muğanlı kəndlərində su problemi də öz həllini tapmışdır. Ləmbəlidə isə heç bir istiqamətdə işə başlamayıblar. Ləmbəli əhalisi başqa kəndlərdə olduğu kimi parkların salınmasını da tələb edir. Lakin ordaca kənddə o qədər problemin toplandığından və park tələb etməyin mümkün olmadığından danışaraq, bazis infrastruktur və sosial məsələlərin prioritetləşdirilməsinin vacibliyindən danışırlar.

7. *(Gender) Qadınları qısnanma vəziyyətinə salan problem*

**Qadınların məişəti:** İor-muğanlıda qadınların hüquqi vəziyyətləri mühüm problemlərlə səciyyələnir. Qadınların mütləq çoxluğunun hüquqları həm icmadaxilində hakim kəsilən patriarxal normalardan və yalançı ənənələrdən, həm də Dövlətin laqeyd siyasəti nəticəsindən irəli gələn sistemli ayrı-sekilik ucbatından pozulur. Ləmbəlidə yaşayan qadınlar əsasən daxili təsərrüfatda işləyirlər. Bu məşğuliyyət isə icmanın özündə belə əhəmiyyətli əmək kimi qəbul edilmir. Ləmbəlidə qızların təhsili dəstəklənmir, lakin istisnalar da mövcuddur. Uşaq bağçalarının olmaması qadınların üzərinə ağır yük kimi düşür. Onlar gündəlik ailə və kənd təəsrrüfatı işlərinə paralel olaraq övladların tərbiyələrilə də məşğul olmağa məcburdurlar. Qadınlar qızların erkən nikahlarının illər ərzində başlıca problem olduğunu bildirirlər. Lakin, son dövrdə bu praktika pozulmağa başlayıb və belə hallar nadir şəkildə baş verir. Köçəri həyat da qadınların üzərinə düşən ayrıca ağır yükdür. Onlar dağda olarkən öz səhhətlərinin qeydinə qala bilmirlər, həkim yanına gedə bilmirlər. Bu bir çox hallarda yoxsulluq və resursların olmaması ilə bağlıdır.

## Düzəyrəm və Paldo kəndləri

### Düzəyrəm və Paldo kəndləri haqqında ümumi məlumat

Düzəyrəm, Tsitsmatiani (Qarabağlı) və Paldo Düzəyrəm inzibati vahidliyində birləşmişdir. Saqareco bələdiyyəsinin tərkibinə daxil olan bu inzibati vahidlik bələdiyyənin inzibati

mərkəzindən 35 kilometr məsafədədir. Hər üç kənddə ümdə 3509 nəfər yaşayır. İnzibati vahidlikdə bircə ictimai məktəb var.  Kənddə bir sünni və bir də şiə məscidi fəaliyyət göstərir.

## Düzəyrəm və Paldonun ehtiyacları:

1. *(Qavrayış)  İcmada problem kimi qavranılan məsələ*

**Kəndaxili yollar:** Düzəyrəm və Paldoda yol məsələsinin problem olduğu göstərilir. Sorğu edilənlərin sözlərinə görə, kənd əhalisi yolsuzluğa artıq alışmış və bu məsələni aidiyyatlı idarələr qarşısında heç qaldırmır da. Lakin, başqa kəndlərdə daxili yolların reabilitasiyasının tez-tez aparıldığını müşahidə edirlər. Onların heç vaxt asfaltlaşmış yolları olmayıb. Yol haqqında danışarkən bunun həm varlı, həm də yoxsul ailələrin eynicür narahat etdiyini vurğulayırlar. Maşınları olanlar avtomobillərinin gediş hissələrini təmir edib-dəyişmək üçün hər il  xeyli miqdarda pul sərf etməli olurlar.  Maşınları olmayanlar isə kənd daxilində hərəkət etməkdə çətinlik çəkirlər.

**İctimai nəqliyyat:** iştirakçıların fikrincə, ictimai nəqliyyat ən çox bu iki kəndə lazımdır, çünki İor-muğanlının mərkəzindən çox uzaqda yerləşir və gənclər həm kənddaxili, həm bələdiyyə və Paytaxt istiqamətində hərəkət etməkdə çox çətinlik çəkirlər.

Əhali küçə işıqlandırma probleminin həllini və kəndin bir hissəsində zibil qablarının yerləşdirilməsini **müsbət qiymətləndirirsə**  də qabların çatışmazlığından və onların hər yerə yerləşdirilməsinin vacibliyindən danışır.

2. *(Kəmiyyət) İcmada ən çox adamı narahat edən problem?*

**Kənd təsərrüfatı təyinatlı torpaqlar:** Hər iki kənd sakinlərini kənd təsərrüfat təyinatlı torpaqların olmaması narahat edir. Sorğu edilənlərin bildirdikləri kimi, kənddəki torpaqları Merin etimadlısı ədalətsiz şəkildə mənimsəyir. O, artıq  90 hektardan artıq torpağı mənimsəmişdir.[5] Əhali aidiyyatlı orqanlara məsələ ilə bağlı dəfələrlə müraciət etmişdir. Sosial Ədalət Mərkəi həmin məsələni öyrənib prokurorluğa müraciət etsə də müvafiq şəxslər hələ də məsuliyyətə cəlb edilməmişlər. Torpağın mövcud olmaması şəraitində, əhalinin iqtisadi məşğuliyyətinə də xələl gəlir. Onlar icarəyə götürdükləri torpaqlar üçün aqrokredit əldə edə bilmədikdə mikromaliyyə təşkilatlarına üz tutmalı olurlar. Həmin təşkilatlarsa kreditləri olduqca yüksək faizlə verirlər. Yüksək faizə görə əhali borcları ödəyə bilmir.

**İşsizlik:**  səkkiz kəndin səkkizinin də bir bütöv kənd kimi qəbul edilməsinə baxmayaraq Düzəyrəm və Paldo kəndlərinin sosial və iqtisadi vəziyyəti yerdə qalan kəndlərinkindən fərqlənir.  Əhalinin bildiriyi kimi hər iki kənddə qoyunçuluq artıq aparıcı sahə deyildir. Bunun səbəbi isə odur ki, hər iki kənd sakinlərinin əhəmiyyətli hissəsi 90-cı illərdə yaşamaq üçün Azərbaycana köçmüşdür. Bir hissəsi isə fermerlik fəaliyyətinə torpaqları icarə və mülkiyyətinə ala bilmədiyi üçün davam edə bilməmişdir. Sorğu olunanların bir qisminə görə, Azərbaycana köç etməyin əsas səbəblərindən biri Gürcüstanda 90-cı illərdə mövcud olan sosial-iqtisadi böhran və şovinist ritorika və siyasət oldu. Bununla belə, əhalinin bir hissəsi üçün Azərbaycana yaşamaq üçün getmək övladlarına təhsil

---

[5] Bu məsələ ilə bağlı jurnalist araşdırmasının nəticələrilə burda tanış ola bilərsiniz: https://ifact.ge/duzagrama/?fbclid=IwAR21dsC6Npj5xG_EXQ45fa-57Xhb7ZNZWizqOLM3FaYivh1kknU8B3K0Sa4

vermək məqsədilə də şərtlənmiş idi. Son illər ərzində əhali öz kəndinə qayıtmağa qərar verdi (bu bir tərəfdən Gürcüstanda baş verən islahatlar, Dövlət təsisatlarının gücləndirilməsi, ikinci tərəfdən isə Azərbaycan Respublikasında vətəndaşlıq ala bilmədiklərindən irəli gəlmişdir). Lakin, qayıdan əhalinin torpaq resursları olmadığı üçün, Düzəyrəm və Paldo əhalisinin iqtisadi vəziyyəti ağırlaşır.

*(Müddət) İcmanı ən uzun müddət narahat edən problem*

**Məqkətəbəqədər təhsil:** hər iki kəndin əhalisi üçün məktəbəqədər təhsil müəssisəsinin mövcud olmaması ən uzun sürən problemdir. Kənd əhalisi məktəbdən və müəllimlərdən razıdır. Onlar habelə bir neçə il əvvəl məktəblərini təmir edən hakimiyyətə **minnətdarlıqlarını bildirirlər.** Lakin burdaca məktəbəqədər təhsilin övladları üçün son dərəcə vacib olduğunu vurğulayırlar. Onların təbirincə desək Muğanlı uşaq bağçasında Düzəyrəm və Paldo uşaqlarına heç vaxt yer olmur.

3. *(Tezlik) İcmada ən çox üzləşdiyimiz problem*

**Kəndin girəcəyindəki körpü:** Ləmbəli kəndində olduğu kimi, Düzəyrəm və Paldo sakinləri də əsas problem kimi kəndin girişindəki körpünün qəzalı vəziyyətdə olmasından şikayətlənirlər. Dedikləri kimi, bu körpüdən hər dəfə keçərkən, uçmasından və insanların həlak olacağından ehtiyat edirlər. Kənddə körpünün qəzalı vəziyyətə düşməsinin səbəbinin yük maşınlarının olduğunu düşünürlər. Əhalinin qənaətincə körpünün reabilitasiyası və möhkəmlənməsi Dövlətin əsas prioriteti olmalıdır.

**İçməli və suvarma suyu:** Düzəyrəm və Paldoda, İor-muğanlının yerdə qalan kəndlərindən fərqli olaraq içməli su əhaliyə qrafiklə verilir. Lakin, bəzən su həftələrlə kəsilir. Əhali suvarma sularının olmadığı üçün bostanlarını suvara bilmədiklərindən şikayətlənir. Beləki, yeganə ümidləri yalnız yağışdır. Yağış olduqda bostanları var, yoxsa -yox.

4. *(Ağırlıq) Ən intensiv və dözülməz olan problem*

**Mer nümayəndəsinin və onun ailə üzvlərinin özbaşınalığı:** hər iki kənd əhalisi xüsusilə Merin nümayəndəsi Muxtar İsmayılovun haqqında şikayətlənir. Onların sözlərinə görə, o öz vəzifəsindən sui-istifadə edir və kəndin torpaqlarını mənimsəməklə, kəndin ən müdafiəsiz əhalisini qısnamaqla və öz vəzifəsini yerinə yetirməməklə məşğuldur. Bununla belə, Merin kənddəki nümayəndəsinin oğlu yerli polis işçisidir, beləki, kənddə kimsə səsini ucaltdıqda oğlu öz səlahiyyətindən sui-sitifadə edərək həmkəndlilərini incidir. Dövlət nümayəndələri kənddə "asayişi" belə qoruyurlar. Bu cür reallıq yerli əhali və Dövlət təsisatları arasındakı etimadsızlığı beləcə dərinləşdirir.

5. *(Bərabərlik) bərabərlik hüququnu pozan problem*

**Biz yerdə qalan İor-muğanlıdan da ağır vəziyyətdəyik:** Düzəyrəm və Paldo əhalisi İor-muğanlının yerdə qalan azərbaycanlı kəndlərindən də ağır iqtisadi vəziyyətdə olduqlarını deyirlər. Onların fikrincə kənddə ictimai nəqliyyatın olmadığı, daxili yolların pis vəziyyətdə olması ucbatından kənd təcrid edilmiş vəziyyətdədir və məhsulun qiymətləri də çox yüksəkdir. Bunun üçün onlar məhsulları yüksək qiymətə almaq məcburiyyətində qalırlar.

Sorğu olunanlar Ləmbəlinin və yerdə qalan kəndlərin əhalisinin daha imkanlı olduğu qənaətindədir. 90-cı illərdə Düzəyrəm və Paldo kəndləri sakinlərinin bir qismindən fərqli olaraq həmin kənd əhalisi Gürcüstanda qalmağa üstünlük vermişdir. Bu gün hər iki kəndin əhalisinin mütləq əksəriyyəti günəmuzd işləyir və yaxud yüksəkfaizli kreditlər ucbatından kiçik biznes məşğuliyyətini davam etdirə bilmir.

**Gürcü kəndlərinə nisbətən daha da ağır ehtiyac içində yaşayırıq:** İor-muğanlının başqa kəndlərindən fərqli olaraq, Düzəyrəm və Paldo əhalisi özünün Saqareconun gürcü kəndlərilə müqayisədə aciz vəziyyətdə olduğunu düşünür. Onların dediyinə əsasən, gürcü kəndlərində yol, uşaq bağçası, bazis infrastruktur, bağlar, parklar belə var. Aralarında öz kəndlərini İor-muğanlının “Sibiri” belə adlandırırlar.

6. *(Gender) Qadınları qısnanma vəziyyətinə salan problem*

**Qadınların məişəti:** iştirakçılara əsasən, Düzəyrəm və Paldo qadınları, İor-muğanlının yerdə qalan kənd qadınlarından fərqli olaraq daha fəaldırlar. Sorğu edilənlərin dediklərinə əsasən, 90-cı illərdə hər iki kəndin əhalisi tərəfindən Gürcüstanı tərk etmənin və Azərbaycana keçməyin əsas səbəblərindən biri də məhz elə qızlara keyfiyyətli təhsil verməyi təmin etmək idi. Buna baxmayaraq qadınların hüquqları bu kəndlərdə də müdafiə edilmir. Qeyd etmək gərəkdir ki, müsahibələr və fokus qruplarda da sözügedən kəndlərin qadınları diskussiya və müzakirə prosesinə daha fəal qoşulurdular. İcma daxilində mövcud olan sərt iyerarxiya qadınların maraqlarının təkzib edilməsi bahasına olduqca dərin kök salmışdır.

## Muğanlı və Keşəli

### Muğanlı və Keşəli kəndləri haqqında ümumi məlumat

Muğanlı və Keşəli kəndləri Muğanlı İnzibati Vahidliyində birləşmişdir. İnzibati vahidlik bələdiyyənin tərkibinə daxildir və mərkəzdən 37 kilometr uzaqda yerləşir. Hər iki kənddə ümdə 6500 nəfər yaşayır. İnzibati vahidlikdə iki ictimai məktəb və bir uşaq bağçası fəaliyyət göstərir. Kənddə bir sünni və bir şiə məscidi fəaliyyət göstərir.

### Muğanlı və Keşəlinin ehtiyacları:

1. *(Qavrayış) İcmada problem kimi qavranılan məsələ*

**Qısnanmaq hissi:** Muğanlı və Keşəli kəndlərində tərk edilmişlik və qısnanma hissi güclüdür. Onlar, kəndlərində bazis sosial infrastrukturunun belə olmadığını deyirlər. Kənddə yol, su, uşaq bağçası, zibil qabları yoxdur. Fokus qrupda iştirak edənlərdən biri kəndi köçəri (yerlilərin təbirincə “Binə”) həyatına bənzətdi, çünki dağda olduğu kimi onların kəndlərində də bazis infrastruktur yoxdur. Keşəli kənd məktəbi ağır vəziyyətdədir. Uşaqlar ora sığmır və məktəb tədris prosesi üçün əhalinin evlərini icarəyə götürməyə məcbur qalır.

Əhali onlara xüsusilə də seçkilər ərəfəsində yeganə sualla muraciət edirlər – kəndə nə lazımdır. Ancaq onların həyatları artıq illərdir ki dəyişməz qalır. Beləki, görüşün əvvəlində əhali ilə problemlər haqqında danışmaq çətin oldu. Onlar görüşlərinə çox adamın gəldiyini, ancaq problemləri heç kəsin həll edə bilmədiyini, əhalininsə bundan usandığını deyirlər.

**Xidmətlərə əlçatımlılıq:** Keşəli və Muğanlı əhalisində lazım olduqda özünüidarəetməyə müraciət edə bilərlər hissi olduqca zəifdir. Bütün iştirakçılar vəzifə yiyələrinin yalnız öz rifahları üçün işlədiklərini vurğulayır. Ümidsiz qalmış Muğanlı əhalisi bildirirdi ki, əsas odur ki, Dövlət onların əlindən bir şey almasın, yoxsa öz problemlərini özləri də həll edə bilərlər. Hər iki kənddə, fokus qrupda iştirak edənlər Dövlət dilini bilmədikləri üçün bələdiyyəyə gedib heç bir xidmət ala bilməyəcəklərini, bunun üçün kimsə tanışı yanları ilə aparmalı olduqlarını dedilər. Bundan əlavə Merdən çox onlar Merin nümayəndəsinə müraciət etməyi üstün tuturlar, çünki müvafiq "hörmət" etdikdə problemləri o daha tez həll edir. Kollektiv problemlərə gəldikdə isə (içməli su, zibil qabları, yol, uşaq bağçası və s.) soğru iştirakçıları bu məsələlərə müdaxilə etmək belə istəmirlər.

2. *(Kəmiyyət) İcmada ən çox adamı narahat edən problem*

**İçməli və suvarma su problemi:** içməli su Muğanlı kəndinə verilsə də, Keşəliyə verilmir. Keşəlidə çox insan bu problemdən əziyyət çəkməkdədir. Muğanlı və Keşəli bir inzibati mərkəzdə birləşib, həmin inzibati vahidliyin Şəhər şirasındakı majoritar deputatı isə Muğanlıdadır. Keşəlilərin qənaətincə həmin şəxs yalnız öz problemlərinin həlli ilə məşğuldur və Keşəlilərə diqqət ayırmır. Öz növbəsində Muğanlı əhalisi hesab edir ki, başqa kəndlərə baxdıqda onların kəndində həddindən çox problem var.

**İctimai nəqliyyat:** ictimai nəqliyyata ehtiyac haqqında İor-muğanlıda əsasən tələbələr danışırlar. Sorğu olunanlara əsasən, kənddə bir neçə özəl sürücü var. Onlar öz mikroavtobusları ilə Paytaxtın bir neçə bazarına kənd təsərrüfatı məhsullarını satmağa aparan sərnişinləri daşımaqla məşğuldurlar. Ancaq tələbələr üçün onların cədvəli əlverişli deyildir, nəticədə gənclərin əhəmiyyətli hissəsi kənddən mərkəzi yola çıxmaq üçün taksinin bahalı xidmətindən istifadə etməli olur. Mərkəzi yolda da nəqliyyat vasitəsi ola bilsin ki saatlar ərzində saxlamasın. Nəqliyyatsızlıq ucbatından gənclər kilometrlərlə piyada getməli olurlar. Ailələrin bir hissəsi isə öz övladlarını (əsasən qızlarını) nəqliyyatsızlıq səbəbilə təhsilinə davam etməkdə kömək etmir.

3. *(Müddət) İcmanı ən uzun müddətdə narahat edən problem*

**Keşəli məktəbinin binası:** Keşəli məktəbi illər ərzində ağır vəziyyətdə idi. Doğrudur məktəbin binasını təmir etdilər və yenilədilər, ancaq o uşaqların hamısını sığdıra bilmir. Məktəb administrasiyası məhdud sinif otaqlarına görə, kənd əhalisindən qonşuluqdakı evləri icarəyə götürməyə məcburdur. Əhali məktəb müəllimlərinin övladlarına verdikləri bilikdən razıdırlar. Lakin məktəb infrastrukturu onların fikrilə bu günə qədər həllini tapmayan problemdir.

**Məktəbəqədər təhsil müəssisəsi:** İor-muğanlının başqa kəndlərində olduğu kimi, Keşəli və Muğanlıda da əhali məktəbəqədər təhsil tələb edir. Muğanlı kəndində uşaq bağçası olsa belə, ora yalnız 30 uşaq qəbul edə bilir. Bunun üçün əhali kəndləri üçün uşaq bağçalarının kifayət etmədiyini, ora da uşaqların yalnız tanışlıqla qəbul edildiklərini vurğulayırlar. Keşəli əhalisi "Sokar" şirkəti tərəfindən bağçanın tikilməsini müsbət qiymətləndirir.

4. *(Tezlik) İcmada tez-tez üzləşdikləri problem*

**Kəndin girişindəki körpü:** Keşəli və Muğanlı əhalisi üçün kəndə giriş körpüsünün vəziyyəti son dərəcə əhəmiyyətlidir. Onlar körpünün istifadə müddətinin keçdiyini, ancaq yenə də heç kəsin fikir vermədiyini bildirirlər. Əhalinin bir hissəsinə əsasən, kəndə yaxın əcnəbi iş adamları

tərəfindən satınalınan torpaq sahələrində trayler və yük maşınlarının hərəkəti artdığı üçün körpü sıradan çıxmışdır.

5. *(Ağırlıq) intensiv və dözülməz olan problem*

**Kənd təsərrüfatı torpaqları:** Kənd təsərrüfatı torpaqlarının problemi həm Keşəlidə, həm də Muğanlıda aktualdır. Keşəli əhalisinin bildirdiyi kimi, kənddə torpaq ev tikməyə belə çatmır, ancaq buna baxmayaraq kənd nümayəndələri və Şəhər şurası üzvləri torpaqları qeyri-rəsmi mənimsəməkdə davam edirlər. Muğanlı əhalisi torpaqlarının Dövlət tərəfindən qanunsuz satıldığını və buna görə hazırda torpaqsız qaldıqlarını dilə gətirirlər.

6. *(Bərabərlik) Bərabərlik hüququnu pozan problem*

**Başqa kəndlərlə öz kəndlərini müqayisə etmək:** sorğuda iştirak edənlər yoxsulluq və işsizliyin bütün ölkədə olduğunu yaxşı görürlər. Bunun üçün, adı çəkilən problemlərin yalnız onların kəndinə məxsus olduğunu deyə bilmirlər. Lakin, Keşəli və Muğanlı əhalisinə əsasən, Saqareconun gürcü və azərbaycanlı kəndləri arasındakı fərq yenə də nəzərə çarpmaqdadır. Onun sözlərinə görə, qaz və elektrik enerjisindən savayı, onlarda heç nə yoxdur. Əhali gürcü kəndləri kimi onlara da parkların, gənclər mərkəzinin, idman zallarının və s. gərək olduğunu bildirir.

7. *(Gender) Qadınları qısnama vəziyyətinə salan problem*

**Qadınların məişəti:** Keşəli və Muğanlı kəndində qadınların məişəti xüsusilə ağırdır. Bu kəndlərdə qadınlar əsasən ailə təsərrüfatı və uşaqları tərbiyə etməklə məşğuldurlar. Burda qadınların tək başına bayıra çıxması belə problemlidir. Beləliklə, onlar vaxtlarının əhəmiyyətli hissəsini evlərində keçirirlər. Qadınlar üçün toplanma məkanları mövcud deyildir. İcmada patriarxal normalar hələ də güclüdür. Onlar üçün qadınların ictimai məkanlarda işləməsi belə məqbul deyildir. Qızların təhsillərinə dəstək bu kəndlərdə zəifdir. Lakin Keşəli kəndi sakini fəal qadın öz icması üçün əhəmiyyətli təcrübə yaradır və qadınların güclənməsi üçün fəal işləyir. O və onun İor-muğanlıdan olan dostları, 2022-ci ildə „İormuğanlı İcma Mərkəzi“ yaratdılar. Mərkəz kənddə yaşayan qadınlar və fermerlərin ehtiyaclarının advokatlaşdırılması üzərində işləyir. Habelə, icma mərkəzi əhali arasında gürcü dilinin ödənişsiz kursları keçirir, o cümlədən, qadınlar üçün. Keşəli və Muğanlıdakı içməli su, uşaq bağçaları və parkların olmaması kimi infrastruktur çağırışların yükü az qalsın tamamilə qadınların boynuna düşür.

## Qazlar kəndi

### Qazlar kəndi haqqında ümumi məlumat

Qazlar kəndi, Tüllər kəndi ilə birlikdə Tüllər İnzibati Vahidlikdə birləşmişdir. Qazlar Saqareco bələdiyyəsinin tərkibinə daxildir və bələdiyyə mərkəzindən 40 kilometr uzaqlıqda yerləşir. Qazlarda 1500 nəfər yaşayır. Kənddə məktəb, uşaq bağçası yoxdur. Kənddə bir sünni məscidi fəaliyyət göstərir.

Qazlar kəndinin ehtiyacları:

1. *(Qavrayış) İcmada problem kimi qavranılan məsələlər*

**Kənddaxili yollar:** Fokus qrupda iştirak edən əhalinin əhəmiyyətli hissəsi üçün kəndin yolları ən böyük problemdir. Onarın sözlərinə əsasən, yolları heç vaxt asfaltlı olmamışdır. Əhalinin fikrincə, ilk növbədə həllini tələb edən məsələ yol problemidir və o nəqliyyat məsələsilə də kəsişir. Yol olmadığı üçün kənddə ictimai nəqliyyat da işləmir. Bu isə gəncləri ağır vəziyyətə salır.Əhali bildirir ki, kənddən çıxmağa sevinirlər, çünki onların kəndindən sonrakı yollar asfaltlıdır.

**Ambulatoriya və aptek:** sorğu iştirakçıları bildirirlər ki, kəndlərində aptek və ambulatoriyanın açılması lazımdır, çünki təzyiqlərini ölçmək və dərman almaq üçün yolsuzluq, maşınsızlıq şəraitində kilometrlərlə yol getməli olurlar. Sorğu iştirakçılarına görə, yolların vəziyyətini bildikləri üçün bir çox hallarda ailə üzvlərinə aptekə və həkimə aparmağı belə xahiş edə bilmirlər. Onların sözlərinə görə, kənddə ambulatoriya və ya aptekləri olsa öz səhhətlərinin qeydinə qalmaqda çətinlik çəkməzdilər.

2. *(Kəmiyyət) İcmada ən çox insanı narahat edən problem*

**Kənd təsərrüfatı torpağı:** Qazlar kəndində demək olar ki hər bir ailənin torpaq problemi vardır. Bu məsələ əhali üçün əsas problemlər arasında göstərilir. Bununla belə, sorğu iştirakçılarının bildirdiyi kimi, kənd torpaqlarını hakimiyyətə yaxın olan şəxslər qanunsuz şəkildə bölüşürlər. Torpağa ehtiyacı olan sıravi vətəndaş isə torpaqsız qalır.

Əhali kənddə küçə işıqlandırma probleminin əsasən həll edilməsindən **razıdır. Zibil qabları isə** yalnız kəndin girişində **yerləşmişdir.** Zibil qablarına kəndin daxilində də ehtiyac var.

*(Müddət) İcmanı ən uzun müddət narahat edən problem*

**Məktəb və məktəbəqədər təhsil:** Qazlarda heç bir məktəb və məktəbəqədər təhsil müəssisələri fəaliyyət göstərmir. Əhali bildirir ki, kənddə Sovet İttifaqı dövründə belə təhsil müəssisələri olmamışdır, bunun üçün onlar belə vəziyyətə alışıblar. Lakin, Sovet İttifaqından sonra kənd böyümüş və bu gün artıq 400-dən çox ailə yaşayır. İor-muğanlıda uşaq bağçasının olmadığı üçün bu resurs qazlarlı uşaqlar üçün də əlçatmazdır. Qazlar uşaqları məktəb təhsilini Tüllərin ictimai məktəbində alırlar. Bunun üçün məktəbin nəqliyyat vasitəsindən istifadə etsələr də, həmin məsələnin də problemlərlə əlaqəli olduğunu söyləyirlər. Bir maşına iki dəfə artıq şagird yerləşdirilir və bunun üçün təhlükəsizlik normalarını pozulur.

3. *(Tezlik) İcmada ən çox üzləşdikləri problem*

**İçməli və suvarma suyu:** Qazlar kəndinə su cədvəllə verilir. Lakin əhali bildirir ki, suyu tez-tez kəsdikləri üçün əhali yenə də maşın və arabalarla su daşımalı olur.

4. *(Ağırlıq) Ən intensiv və dözülməz olan problem*

**Kəndin girişindəki körpü:** Qazlar kəndinin Saqarecodan ən uzaqda yerləşməsinə baxmayaraq, kəndin körpüsü onlar üçün də ən ağır problem kimi qalır. Əhali bildirir ki, körpüdən qorxu ilə istifadə edirlər. Əhalinin sözlərinə görə, kənd birjasında bu haqda söhbətlər tez-tez baş verir, Mer nümayəndəsi qarşısında da məsələni tez-tez qaldırırlar, lakin problemin həllinə ümidləri yoxdur.

**Qazlardan qoyunu yaylağa aparmaq üçün yolların özəlləşdirmə məsələsi:** əhalinin bildirdiriyi kimi, ən ağır problem qoyunu aparmaq yollarının özəlləşdirilməsidir. Həmin yolları kəndin torpaqları ilə birlikdə, konkret əcnəbi investor almışdır. Əhali qoyunu aparmaq üçün uzaq yol qət etməli olur.

5. *(Bərabərlik) Bərabərlik hüququnu pozan problem*

**İor-muğanlıda ən çox qısnanan bizik:** Sorğuda iştirak edənlərə əsasən, onların kəndində heç bir şey inkişaf etmir və ümumiyyətlə hamıdan unudulmuşluq hissləri var. Kənddə infrastruktur, yol, məktəb, başça yoxdur. Kənd əhalisi özünü və kəndi zəhmətkeş hesab edir və o biri kəndlərdən heç də pis yaşamadıqlarını deyirlər. Lakin bazis sosial infrastrukturu tələb edirlər.

6. *(Gender) Qadınları qısnama vəziyyətinə salan problem*

**Qadınların məişəti**: Qazlar kəndində yaşayan qadınlar öz problemləri ilə bağlı bir çox hallarda danışmırlar. Fokus qruplarda fəal şəkildə iştirak edən yaşlı qadınlar kənddaxili yolların, İor-muğanlı körpüsü və qoyunu aparacaq yolları məsələsini vurğulayırlar. İştirakçılardan biri bunu onunla izah edirdilər ki, qadınlar dərman və ambulatoriyaya aparmağı öz övladlarından belə xahiş edə bilmirlər. Qadınların əhəmiyyətli hissəsi kənddə uşaq bağçaları və məktəb tələb edirlər, çünki övladlarını tərbiyə etməyin yükü onların boynuna düşür. Habelə qadınlar qızlarının təhsillənməlirini istəsələr də, yolsuzluq və nəqliyyatsızlıq şəraitində buna nail ola bilmirlər.

İor-muğanlıda qadınların həyatları xüsusilə ağırdır. Son illər ərzində, ailələrin bir hissəsi övladlarının (qızlarının) təhsilini dəstəkləyir. Lakin, səkkiz kəndin səkkizində də qadınların rolları haqqında patriarxal mövhumatlar yenə də güclüdür və qadınların ictimai həyatda iştirakları, başqa bölgələrdən fərqli olaraq, təşviq edilmir. Erkən yaşda nikah məsələsi, azalmış statistikaya baxmayaraq, İor-muğanlıda yenə də əhəmiyyətli problem olaraq qalır.

## Yekunlaşdırmaq

İor-muğanlının səkkiz kənd sakinləri Saqareco bələdiyyəsi əhalisinin üçdə birindən çoxunu təşkil edir. Lakin həmin kəndlərin mütləq əksəriyyəti bələdiyyədən və Dövlətdən içməli su, yol, uşaq bağçası, məktəb və s. kimi lazımlı resurs və xidmətləri ala bilmirlər. Kəndlərin ümumi problemləri də var - torpaq və otlaqların əlçatımlılıq məsələsi, kəndin girişindəki körpü. Bunlar Dövlət tərəfindən vaxtlı və sistemli reaksiya verməyi tələb edən məsələlərdir. O cümlədən torpaqların qanunsuz şəkildə özəlləşdirilməsi ehtimal olunan praktikalara da diqqət vermək lazımdır. Dövlət bunu əsaslı şəkildə araşdırmalı və əhaliyə pozulan hüquqlarını bərpaetmək imkanı verməlidir. Bununla belə, kəndlərdə, az qalsın bütün sahələrdə, həll edilmədiyi üçün insanın bazis hüquqlarını pozan məsələlərlə üzləşirik.

Əhalidə yerli özünüidarəetmə üçün onların ehtiyacları və maraqları prioritet təşkil etməməsi ilə bağlı hisslər yaranır. Yerli özünüidarəetmə və əhali arasındakı uçurum nəzərə çarpacaq qədər güclüdür. Etnik azlıqların Şəhər şurasındakı nümayəndəlikləri zəifdir. Meriya administrasiyasında isə heç kəs işləmir. Meriyada tərcümə resursu da mövcud deyildir. O, əhaliyə özünüidarəetmənin fəaliyyətində məhdudiyyətsiz şəkildə iştirak etmək imkanı verəcəkdi. Əhali və Merilik arasında

yeganə əlaqə Mer nümayəndələri tərəfindən həyata keçirilir, lakin əhalinin söhbətindən məlum olduğu kimi, onlar bir çox hallarda korrupsiya fəaliyyətinə qoşulmuş və şəxsi maraqlarından irəli gələrək çıxış edirlər.

Xidmətlərə əlçatımlılığın olmaması və bazis infrastruktursuzluq şəraitində əhali qonşu gürcü kəndlərində mövcud olan vəziyyətlə öz məişətlərinin bir-birindən fərqləndiyini yaxşı görür. Bu isə onlarda nihilizmi və frustrasiyanı artırır.

İor-muğanlıda İor-muğanlı İcma Mərkəzi fəaliyyət göstərir. Mərkəzi öz icmalarının ehtiyaclarını advokatlaşdırmaq üzərində işləyən gənclər təsis etmişlər. Təşkilat müxtəlif istiqamətdə işləyir, o cümlədən 2022-ci ildə onlar Saqareco bələdiyyəsinin məktəbəqədər müəssisəsinin tikilməsi tələbilə müraciət etdilər. İor-muğanlı icma mərkəzi ilə birlikdə, kənddə "İşıqlı gələcək" adlı alternativ təhsil mərkəzi də fəaliyyət göstərir. Onu yerli müəllimlər təsis etdilər və hədəfi gəncləri təhsilləndirməkdir. Gənclərin təşkilatlanmağı ümid verir ki, yerli özünüidarəetməyə hesabatlılığı və məsuliyyəti artdırmağa, kollektiv şəkildə hərəkət edərək əhalinin kəskin ehtiyaclarını, narahatçılıqlarını siyasi gündəliyə gətirməyə məhz onlar nail olacaqlar.